UOT 930; UOT 371.31

ELMƏDDİN BEHBUD
Bakı Dövlət Universiteti
"Redaksiya-nəşriyyat işi" kafedrasının dissertantı
TarixVeOnunProblemleri@gmail.com

"1920-Cİ İLƏDƏK ALİ MƏKTƏBLƏRDƏ OXUMUŞ AZƏRBAYCANLILAR" ADLI (8 CİLDLİK) ENSİKLOPEDİK SORAQ KİTABININ NƏŞRİ XÜSUSİYYƏTLƏRİ

DOI: https://doi.org/10.36719/2708-065X/103/216-220

Məqalədə 2018-ci ildən "Təhsil" nəşriyyatında çap edilməyə başlayan müəllifləri Misir Mərdanov və Ədalət Tahirzadə olan "1920-ci ilədək ali məktəblərdə oxumuş azərbaycanlılar" (ensiklopedik soraq kitabı) adlı (8 cildlik) fundamental, iri həcmli, çoxcildli ensiklopediyanın nəşri xüsusiyyətlərindən bəhs olunur. Həmçinin, məqalədə ensiklopediyanın hazırlanması səbəblərindən, nəşrin bu sahədə ilk fundamental əsər olmasından, müəlliflərin ölkəmizdə və müxtəlif xarici dövlətlərdə apardıqları gərgin axtarışlardan və maraqlı tədqiqatlarından danışılır. Müəllif bu məqalədə 1920-ci ilə qədər müxtəlif dövlətlərin ali məktəblərində təhsil almış azərbaycanlılar haqqında əldə edilmiş informasiyaların ensiklopediyada soraq-məlumat ədəbiyyatının nəşr aparatına uyğun sistemləşdirilməsi, kitabın quruluşu, bədii və poliqrafik tərtibatı barədə dolğun və əhatəli şəkildə məlumat verməyə çalışıb. Məqalədə ensiklopdik nəşrin elmi əhəmiyyəti yüksək dəyərləndirilib və onun müvafiq istiqamət üzrə gələcək tədqiqatlar üçün əsas mənbə rolu olacağı xüsusi qeyd edilib.

Açar sözlər: ensiklopediya, təhsil, azərbaycanlı, universitet, nəşr, çap, redaktor, naşir, soraq-məlumat nəşrləri.

Giriş. Müasir dövrdə nail olduğumuz milli müstəqilliyimizin mədəni, elmi dəyərlərini tərənnüm edən Azərbaycan soraq-məlumat nəşrləri xüsusi əhəmiyyət kəsb edir. Son dövrlərdə soraq-məlumat nəşrəri yeni, daha məzmunlu, müxtəlif mövzulu, tipli, növlü, gözəl bədii və texniki tərtibatda çap edilərək oxuculara təqdim edilir. Təxminən, XXI əsrin əvvəllərindən informasiya nəşrlərinin, o cümlədən soraq-məlumat nəşrlərinin keyfiyyətinin yüksəldilməsi və nəşrinin təkmilləşdirilməsi prosesi daha da inkişaf etmişdir. İnformasiya nəşrləri sistemində əsas yer tutan soraq-məlumat nəşrləri müxtəlif sahələr üzrə, ümumiyyətlə, cəmiyyətin fəaliyyət sahələrində mühüm vasitəyə çevrilmişdir. Belə bir şərait Azərbaycan soraq-məlumat nəşrlərinin geniş şəkildə nəşrini və istifadə olunmasını zərurətə çevirir. Nəzərə alsaq ki, nəşr (kitab) sosial və elmi kommunikasiya üsuludur, onda problemin elmi əhəmiyyəti və aktuallığı daha da yüksəkdir. Soraq-məlumat nəşrləri nəşriyyat işinin ayrılmaz və spesifik fəaliyyət sahəsidir.

Azərbayan kitab nəşrinin ayırlmaz tərkib hissəsi olaraq soraq-məlumat nəşrəri tarix boyu yeni, daha məzmunlu, müxtəlif mövzulu, tipli, növlü, gözəl bədii və texniki tərtibata malik olan kitablarla zənginləşmiş və inkişaf etmişdir.

İndinin özündə də bu məsələ ilə məşğul olan mədəni ölkələrin təcrübəsi göstərir ki, hər yeni nəsil üçün iri həcmli, köklü, sahəvi ensiklopediyalar gərəkdir. Başqa sözlə desək indi informasiyanın geniş diapazona malik olması ilə əlaqədar olaraq bütün sahələr üzrə ensiklopediyalara, ensiklopedik sözlüklərə, adi soraq kitablarına, ikidilli, yaxud izahlı sözlüklərə və s. böyük tələbat daha çoxdur. Müstəqillik illərində respublikamızda fəaliyyət göstərən (dövlət və ya özəl) nəşriyyatlar bu ehtiyacı ödəmək üçün xeyli layihələr hazırlamış, müxtəlif quruluşlu, əhəmiyyətli nəşrlərin çapını həyata keçirmişdir.

Əsas hissə. "Təhsil" nəşriyyatı son dövrlərdə xeyli sayda sahəvi ensiklopedik nəşrlərin çapa hazırlayaraq oxuculara təqdim etmişdir. Bu cür əhəmiyyətli nəşrlərdən biri də 2018-ci ildən çapına başlanılmış (hal-hazırda 8 cildi çapdan buraxılıb) Misir Mərdanovun və Ədalət Tahirzadənin "1920-ci ildədək ali məktəblərdə oxumuş azərbaycanlılar" adlı ensiklopedik məlumat kitabıdır.

Müsəlman Şərqində ilk müəslman dövlət olan Azərbaycan Cümhuriyyətinin (1918-1920) 100 illik yubileyinə ərməğan edilmiş bu nəşrdə sözügedən dövrdə ali təhsilli dövlət adamlarının sənədli tərcümeyi-halı ilk dəfə olaraq toplu halında sistemləşdirilərək ictimaiyyətə təqdim edilir.

Ensiklopediyanın birinci cildində müəlliflər oxuculara müraciət edərək bildirirlər ki, "Oxucuların nəzərinə çatdırırıq ki, əsərdə, əsasən müəlliflərin əldə edə bildiyi arxiv sənədləri və ailə məlumatları öz əksini tapıb. Ancaq ola bilsin ki, bəzi şəxslərin adları kənarda qalıb, yaxud haqqında yazılmış tələblərə dair bilgilər məhdud həcmdədir. Oxuculardan xahiş olunur ki, onlara bəlli olan tələblər haqqında müəlliflərə və ya nəşriyyata məlumat versinlər. Həmin məlumatlardan gələn cildlərin nəşrində itifadə ediləcək. Yardımçı olacaq oxuculara əvvəlcədən öz təşəkkürümüzü bildiririk".

Nəşrin elmi redaktoru AMEA Tarix İnstitutunun direktoru, AMEA-nın həqiqi üzvü, professor Yaqub Mahmudov, naşiri "Təhsil Nəşriyyat-Poliqrafiya" MMC-nin baş direktoru Tural Axundovdur.

Nəşrin birinci cildi 480 səhifə həcmindədir və burada A hərfinə uyğun olaraq materiallar sistemləşdirilmişdir.

Nəşrin forzasında Azərbaycanın gerbi və bayrağı rəngli şəkildə verilmiş, həmçinin cildin yubiley nəşri olduğu haqqında mətn tərtibata daxil edilmişdir.

Növbəti vərəqdə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı (Bakı şəhəri, 16 may 2017-ci il) verilmişdir.

Ensiklopediyanın növəbti səhifəsində Misir Mərdanova məxsus "Varmış millətimizin xətti bu imzalar içində" adlı giriş məqaləsi tərtibata daxil edilmişdir. Bu giriş məqaləsində Misir Mərdanov tarixin səhifələrini vərəqləmiş, çox maraqlı faktlar üzə çıxarmışdır: "XX əsrin ikinci onilliyində bolşevik Rusiyası Cümhuriyyətimizi devirərək Azərbaycanı ikinci dəfə işğal etdikdə hakimiyyət başına onlara sözsüz itaət edəcək və mümkün olduqca savadsız adamları gətirdilər. Yaxşı xatırlayıram, 1998-ci ilin sentyabr ayının 25-də keçirəcəyimiz Azərbaycan müəllimlərinin XI qurultayına hazırlaşırdıq. Qurultayda edəcəyimiz məruzə üzərində işləyərkən Azərbaycan təhsil tarixi ilə daha dərindən tanış olmağa başladıq. Bu zaman məlum oldu ki, 1920-22-ci illərdə Azərbaycan xalq maarif komissarı vəzifəsində işləmiş Dadaş Bünyadzadə birinci Azərbaycan sovetlər qurultayında deyib:

Bizim Azərbaycanda əsrlər boyu heç bir iş görülməmişdir. Bu yaxınlarda biz bütün əhalini siyahıya aldıqda məlum oldu ki, cəmi 62 nəfər ali təhsili olan müsəlman vardır. Bu, aydındır, çünki Azərbaycanın öz ali məktəbi yox idi" (Birinci Azərbaycan soetlər qurultayının stenoqrafik hesabatı. Bakı, 1921. -s.11; A.Rzayev. Azərbaycanda sovet hakimiyyəti illərində ali pedaqoji təhsilin inkişafı tarixindən. Bakı: Azərnəşr, 1960. -S.10).

Həmin vaxtdan bu fikrə şübhə ilə yanaşırdıq. İnanırdıq ki, arxivlərdə ciddi araşdırmalar aparılsa sovet hakimiyyəti qurulanadək ali təhsil almış azərbaycanlıların sayı qat-qat arta bilər" [1, 11].

Misir Məradanov və Ədqalət Tahirzadənin böyük zəhməti nəticəsində aparılmış geniş tədqiqatlardan sonra xeyli materiallar əldə olunur. Bu əldə edilən materiallar isə xarici dövlətlərin arxivləri əsasında aşkarlanır, dəqiq faktlara söykənir. Bu sənədlərin əsasında təhsil almış azərbaycanlıların sayının müəyyən edilməsi və ən əsası da onların sayı haqqında istər bilərəkdən, istərsə də bilməyərəkdən verilmiş yanlış rəqəmlər müəyyən bir müstəvidə təhlil edilir, sonda isə əhəmiyyətli nəticələr oxuculara bu fundamental nəşr vasitəsilə təqdim edilir. Məhz buna görə də Misir Mərdanov yazır: "Doğrudur, ümumən götürdükdə qonşu gürcü və ermənilərlə müqayisədə ali təhsil almış azərbaycanlıların sayı həmin dövrdə çox az idi, çünki, çarizm onların qarşısında yaşıl işıq yandırmış, bizim qarşımıza isə açılması çətin olan kötüklər yuvarlamışdı. Ancaq hətta bu obyektiv çətinliyi də nəzərə aldıqda azərbaycanlıların ali təhsildə geri qalmadığını, mümkün olmayanı mümkün etdiklərini görürük. Əlimizdəki bu kitab dediyimizin doğruluğuna əyani sübutdur. Biz bu kitabla xalqımızın ünvanına atılmış bədnam ləkəni təmizləməyə çalışmışıq və zənnmizcə, bunu bacarmışıq" [1, 12].

Bu nəşrin hazırlanmasında müəlliflər tərəfindən əvvəlcədən plan tutulur. Burada əsas bəndlər: 1) "dünya arxivlərindən tələbələrin sənədlərini toplayaraq məlumat bankı yaratmaq"; 2) "toplanmış materialı sistemləşdirərək nəşrə hazırlamaq"; 3) "hazır materialları kitab şəklində nəşr etdirmək"dən ibarət olmuşdur.

Təbii ki, bunların hər biri çox çətin və zaman tələb edən işdir. Lakin heç bir çətinlik qarşısında geri çəkilməyərək layihəni müəlliflər gerçəkləşdirməkdə qərarlı olmuşlar.

Bu kitaba 1920-ci ilin aprelinədək, yəni Azərbaycan Cümhuriyyəti süquta uğradılıb sovet hakimiyyəti qurulanadək ali məktəblərdə oxumuş azərbaycanlılar haqqında məlumatlar daxil edilib. Məlumdur ki, 1919-cu ilədək - Bakı Dövlət Universiteti yaranana qədər Azərbaycanda digər ali məktəb olmayıb. Bu kitabda 1919-cu ildə BDU-ya qəbul edilmiş tələbələr daxil edilməyib.

Cümhuriyyət hökuməti 1920-ci ilin yanvarında ali təhsil almaq, yaxud ali təhsilini başa vurmaq üçün dövlət təqaüdü ilə əcnəbi ölkələrə 100 tələbə göndərmişdi. Bu kitabda onlar haqqında da məlumatlar daxil edilməyib. Yalnız həmin tələbələrin içərisində 1920-ci ilədək müxtəlif ölkələrdə və müxtəlif kurslarda oxuyanlar vardı. Bu ensiklopediyada məhz həmin tələbələr haqqında informasiya vardır.

Ümumilikdə toplanan materiallar yalnız tələbələrin həyatını örənmək baxımından deyil, ümumən o dövr təhsil sistemi üçün də böyük əhəmiyyət kəsb edir.

Qeyd edək ki, ensiklopediyada istifadə edilmiş mənbələrin düzgün göstərilməsi elmi əsərin başlıca məziyyətlərindəndir. Nəşrdə hər bir oçerkin sonunda qaynaqlar göstərilmişdir. Bu zaman əvvəlcə arxiv sənədləri, sonra kitablar, daha sonra isə jurnal və qəzet məqalələri qeyd olunub.

Ensiklopediyada istifadə edilən qaynaqların adı qısaldılaraq verilib. Qısaltmalar isə ayrıca siyahı şəklində tərtibata daxil edilib.

Arxivlərdən əldə edilmiş sənədlərin hamısı nadir istisnalarla rus dilindədir. Hə də onların 1920-ci ilədək olan imlası müasir orfoqrafiyadan yetərincə fərqlənir. Xüsusilə bəzi terminlər ya artıq çoxdan arxaikləşib, ya da onların dilimizdə qarşılığı olmadığı üçün həmin qarşılıq sözləri müəlliflər tərəfindən yaradılmışdır. Bu cür termin və sözlərin qısa sözlüyünün də tərtib edilməsi məqsədəuyğun sayılaraq nəşrə daxil edilmişdir.

Nəşrdə verilən informasiyalardan bəlli olur ki, Avropada təhsil almış ali təhsillilərimiz nisbətən azlıq təşkil etmşdir. Bunun üçün isə Avropa arxivlərində də araşdırmalar aparmaq gərəkdir.

Ensiklopediyanın 23-cü səhifədən 39-cu səhifələrində digər müəllif Ədalət Tahirzadənin "Əlində dəmir əsa, ayağında dəmir çarıq" adlı əhatəli giriş məqaləsi verilmişdir. İri həcmli giriş məqaləsində Ədalət Tahirzadə bu ensiklopedik kitabdakı materialların toplanması üçün böyük zaman sərf etdiyini qeyd edir, həmçinin arxivlərdə apardığı araşdırmaları göz özünə gətirir, bu iri həcmli nəşrin böyük zəhmət nəticəsində ərsəyə gəldiyini xüsusi vurğulayır.

Ədalət Tahirzadə yazır: "Sovet dönəmi idi. Bütün kitablarda xalqımızın 1920-ci ilədək başdanbaşa savadsız olduğu, yalnız 1920-ci il "Aprel inqilabı"ndan sonra savadlanmağa başladığımız yazılırdı. O zamankı təhsil naziri Dadaş Bünyadzadə Azərbaycanda cəmi 62 ali təhsilli olduğunu demiş, əslində bununla bizi rusların "adam etdiyini" söyləmək istəmişdi. Onun bu fikri "böyük qardaş"a hörmət əlaməti olaraq kitabdan kitaba köçürülürdü. Ən pisi o idi ki, bu fakt irəli sürülərkən millətimizin bacarıqsızlığı təsəvvürü yaradılırdı. Bəziləri bundan yararlanaraq hətta daha irəliyə gedir, erməni və gürcülərin guya bizdən daha qabiliyyətli olduğunu beyinlərinə yeridir, soydaşlarımızda özünəinam duyğusunu yaralayırdı.

Açığı, elə o axtdan "62" rəqəminin doğruluğuna ciddi şübhəm yaranmışdı. Dəftəri də bu məqsədlə tutmuş, ancaq orada cəmi 147 nəfərin adını qeyd edə bilmişdim.

O illərdə ağlıma da gəlməzdi ki, bu iş haçansa əməlli-başlı ciddi bir tədqiqata və son nəticədə qalın-qalın kitablara çevrilə bilər" [1, 23].

Ədalət Tahirzadə əsasən bu məqalədə arxivlərdə işlədiyi zaman qarşılaşdığı problemləri, çətinlikləri və əldə etdiyi nəticələri təfərrüatı ilə oxuculara çatdırmağa çalışmışdır.

Ədalət Tahirzadə qeyd edir ki, 1920-ci ilədək ali məktəblərdə oxumuş təxminən 600-ə yaxın tələbələrimizin sənədlərini əldə etmiş və bu kitabı əsasən həmin sənədlər əsasında sistemləşdirməyə çalışıb [1, 39].

Həmçinin məqalənin sonunda müəllif Ə.Tahirzadə ensiklopediyanın hazırlanmasında müəlliflərə kömək edən AMEA Riyaziyyat və Mexanika İnsitutunda çalışan əməkdaşlardan Günel İsayevaya, Nərgiz Əliyevaya, Səbinə Salmanovaya, Leyla Fərzəliyevaya və Aygün İsayevaya təşəkkürünü bildirir.

"1920-ci ilədək ali məktəblərdə oxumuş azərbaycanlılar" adlı ensiklopedik nəşrinin birinci cildinin 40, 41-ci səhifələrində nəşrdə gedən "Qısaltmalar" başlığı altında nəşrdə gedən qısaldılmış sözlərin açıq yazılışı verilir.

Ensiklopediyanın 42-ci səhifəsində "Qısa sözlük" başlığı altında nəşrdə rus dilində verilmiş sözlərin izahı verilmişdir. Ümumilikdə birinci cilddə 77 azərbaycanlı ali təhsilli ziyalımızın həyat və fəaliyyəti haqqında məlumatlar öz əksini tapır. Burada həmin şəxslərin portret şəkli, həyatı ilə bağlı maraqlı anları özündə əks etdirən müxtəlif fotolar, hətta onlarla bağlı olan sənədlərin fotosurətləri tərtibata daxil edilmişdir ki, bu da nəşrdə gedən materailların dəqiqliyinin süutunu təsdiqləyir. Onlar haqqında təqdim edilən informasiyalara heç bir şübhə yaratmır.

Nəşrin sonunda isə (461-ci səhifədən 479-cu səhifəyə qədər) "Adlar göstəricisi" tərtibata daxil edilmidir.

Nəşrin bütün cildləri eyni poliqrafik tərtibatda hazırlanmışdır. Cildin üz qabığında milli kitab qrafikamıza uyğun olaraq arnamentlərdən istifadə olunmuşdur. Nəşrin kompüter dizaynı Aqil Əmrahova məxsusdur. Nəşrin korrektorları: Səbinə Salamova, Ayggün İsayevadır.

Nəşrin formatı 80x100, tirajı isə 500 nüsxədən ibarətdir.

Ensiklopediyanın ikinci cildi B hərfindən Ə-yə qədər olan əlifba üzrə soyadlar sistemləşdirilmişdir ki, bu da 116 azərbaycanlı tələbə haqqında məlumatı əhatə edir. Üçüncü cilddə F-İ hərfləri, 88 nəfər; dördüncü cilddə K-Q hərfləri, 92 nəfər; beşinci cilddə M hərfi, 106 nəfər, 6-cilddə N-S hərfləri, 118 nəfər, yeddinci cilddə Ş-Z hərfləri, 128 nəfər əhatə edilmişdir.

Nəticə. Ensklopediyanın nəşrində bütün nəşr qaydaları gözlənilmiş, nəşr aparatı düzgün tərtib edilmişdir. Kitabda redaktə məsələləri də xüsusilə diqqətdə saxlanılmış, orfoqrafik səhvlərdən tutmuş, qrammatik səhvlərə qədər peşəkar redaktorlar tərəfindən həyata keçirilmişdir.

Nəşrin bədii tərtibatı göz oxşayır, bütün cildlərdə eyni qayda gözlənilmiş, həmçinin poliqrafik tərtibatında yüksək keyfiyyətli matariallardan (cild, kağız, tel-tikiş və s.) istifadə edilmişdir.

Bütövlükdə "1920-ci ilədək ali məktəblərdə oxumuş azərbaycanlılar" adlı ensiklopedik soraq-məlumat kitabının nəşr tərtibatında böyük bir kollektiv əməyinin şahidi oluruq. Arxiv materiallarının əldə olunmasında prof. Ədalət Tahirzadə şəxsən özü iştirak etmiş, xarici ölkələrə səfərlər etmiş, arxivlərdə axtarış aparmış və olduqca əhəmiyyətli sənədlər əldə edərək nəşri zənginləşdirmişdir. Oxuculara da bəlli olur ki, təqdim edilən ensiklopediyada arxiv sənədlərinin çox hissəsi Kiyev şəhərindən əldə edilmişdir. Bu da bəlli olur ki, azərbaycanlıların xeyli hissəsi oxumaq üçün Ukraynanı, xüsusən iqlim şəraiti münasib olan Kiyevi seçmişdir. Kiyevdə oxuyanların isə əksəriyyəti Müqəddəs Vladimir Universitetinin payına düşür. Burada təhsil alan yurddaşlarımızı üzə çıxarmaq isə həddən artıq zəhmət və vaxt tələb edən ağır bir işdir ki, bunu da əzmkar tədqiqatçı prof.Ə.Tahirzadə yerinə yetirə bilmişdir.

Əlbəttə, bu təqdim edilən çoxcildli ensiklopediyada dövlət arxivlərinin sənədləri başlıca rol oynayır. Lakin ailə arxivləri də istisna deyil.

Burada onu da xüsusi qeyd edə bilərik ki, gələcəkdə təhsil sahəsində aparılan elmi tədqiqatlarda bu çoxcildli nəşrdən istifadə olduqca əhəmiyyətli olacaq. Çünki, zəngin informasiyanı özündə ehtiva edən bu nəşr ali təhsilli azərbaycanlı soydaşlarımız haqqında arxiv sənədlərinə giriş əldə etməyi təmin edəcək.

ƏDƏBİYYAT

1. Mərdanov M., Tahirzadə Ə. 1920-ci ilədək ali məktəblərdə oxumuş azərbaycanlılar: ensiklopedik soraq kitabı. /elmi redaktor: Yaqub Mahmudov. -C.1. -Bakı: Təhsil, 2018. -480 s.
2. Mərdanov M., Tahirzadə Ə. 1920-ci ilədək ali məktəblərdə oxumuş azərbaycanlılar: ensiklopedik soraq kitabı. /elmi redaktor: Yaqub Mahmudov. -C.2. -Bakı: Təhsil, 2019. - 552 s.
3. Mərdanov M., Tahirzadə Ə. 1920-ci ilədək ali məktəblərdə oxumuş azərbaycanlılar: ensiklopedik soraq kitabı. /elmi redaktor: Yaqub Mahmudov. -C.3. -Bakı: Təhsil, 2019. -480 s.
4.Mərdanov M., Tahirzadə Ə. 1920-ci ilədək ali məktəblərdə oxumuş azərbaycanlılar: ensiklopedik soraq kitabı. /elmi redaktor: Yaqub Mahmudov. -C.4. -Bakı: Təhsil, 2020. -536 s.
5. Mərdanov M., Tahirzadə Ə. 1920-ci ilədək ali məktəblərdə oxumuş azərbaycanlılar: ensiklopedik soraq kitabı. /elmi redaktor: Yaqub Mahmudov. -C 5.-Bakı: Təhsil, 2021. -612 s.
6. Mərdanov M., Tahirzadə Ə. 1920-ci ilədək ali məktəblərdə oxumuş azərbaycanlılar: ensiklopedik soraq kitabı. /elmi redaktor: Yaqub Mahmudov. -C.6. -Bakı: Təhsil, 2021. -584 s.

7. Mərdanov M., Tahirzadə Ə. 1920-ci ilədək ali məktəblərdə oxumuş azərbaycanlılar: ensiklopedik soraq kitabı. /elmi redaktor: Yaqub Mahmudov. -C.7. -Bakı: Təhsil, 2022. -520 s.
8. Quliyeva, S. Azərbaycan soraq-məlumat ədəbiyyatı. – Bakı: "Təhsil", 2006. -176 s.
9. Vəliyev İ. Redaktənin əsasları: nəzəriyyə və təcrübə. –Bakı: "Günəş", 2009. – 404 s.

ЭЛЬМАДДИН БЕХБУД
Диссертант кафедры «Редакционно-издательское дело»
Бакинского Государственного Университета

ОСОБЕННОСТИ ИЗДАНИЯ ЭНЦИКЛОПЕДИЧЕСКОГО СПРАВОЧНИКА «АЗЕРБАЙДЖАНЦЫ, ОБУЧАВШИЕСЯ В ВЫСШИХ УЧЕБНЫХ ЗАВЕДЕНИЯХ ДО 1920 ГОДА» (8 ТОМОВ)

В статье говорится об издании фундаментальной, масштабной, многотомной энциклопедии «Азербайджанцы, учившиеся в высших школах до 1920 года» (энциклопедический обзорный сборник), авторами которой были Мисир Марданов и Адалят Тахирзаде, которая начала публиковаться в «Издательство Тахсил» в 2018 году.

Также в статье говорится о причинах написания энциклопедии, интенсивных поисках и исследованиях, проводимых авторами в нашей стране и за рубежом.

Автор статьи постарался предоставить в энциклопедии исчерпывающую информацию о полученных сведениях об азербайджанцах, обучавшихся в высших учебных заведениях до 1920 года, по справочно-информационно-издательскому аппарату, структуре издания, художественному и полиграфическому оформлению. В результате научная ценность работы была высоко оценена и особо отмечено, что она станет основным источником для будущих исследований.

Ключевые слова: энциклопедия, образование, азербайджанский, университет, издание, полиграфия, редактор, издательство, справочно-информационные издания.

ELMADDİN BEHBUD
PhD student of "Editorial-publishing" department,
Baku State University

FEATURES OF THE PUBLICATION OF THE ENCYCLOPEDIC INQUIRY BOOK "AZERBAIJANIS WHO STUDIED IN HIGHER SCHOOLS UNTIL 1920" (8 VOLUMES)

The article talks about the publication of the fundamental, large-scale, multi-volume encyclopedia "Azerbaijani who studied in higher schools until 1920" (encyclopedic survey book), whose authors were Misir Mardanov and Adalat Tahirzade, which began to be published in "Tahsil" publicshing house in 2018.

The article also talks about the reasons for writing the encyclopedia, the intense search and research conducted by the authors in our country and abroad.

The author of the article tried to provide comprehensive information about the information obtained about Azerbaijanis who studied in higher schools until 1920 in the encyclopedia according to the query-information publishing apparatus, the structure of the publication, artistic and polygraphic design. As a result, the scientific importance of the work was highly valued, and it was specially noted that it will be the main source for future research.

Keywords: encyclopedia, education, Azerbaijani, university, publication, printing, editor, publisher, inquiry-information publications.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 03 noyabr 2023-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 21 dekabr 2023-cü il.
Rəyçilər: t.ü.f.d. Leyla Abbasova, t.e.d. Anar İsgəndərov.